**MEMARLIQ**

**АРХИТЕКТУРА** **ARCHITECTURE**

# XIX ƏSRİN AXIRI– XX ƏSRİN ƏVVƏLİ ŞƏHƏRSALMA KONSEPSİYALARI VƏ YENİ MƏSKUNLAŞMA FORMALARININ AXTARIŞI

**İsbatov İlqar Aydın oğlu**– m.ü.f.d., dosent, Memarlığın əsasları kafedrası, AZMİU, isbatov@mail.ru

**Annotasiya.** 1920- ci illərdə dünya şəhərsalma arenasında iki cərəyan mövcud idi: onlardan biri XIX- XX əsrin əvvəllərində yaranmış, Ebenizer Hovard tərəfindən idarə olunurdu, digəri isə mənşəyinə görə Korbüzeyə borcludur. Şəhərsalma problemlərinin inkişaf dərəcəsinə və reallığa görə Korbüzenin konsepsiyası Hovardın təlimlərindən əhəmiyyətli dərəcədə aşağı idi. Buna baxmayaraq, ona etinasız qalmaq da olmaz, çünki 1922-1925- ci illərdə Korbüze tərəfindən yazılmış "Urbanisme" kitabı Hovarda qarşı yönəldilmiş və eyni zamanda XX əsrin şəhərsalma incəsənəti tarixində əlamətdar mərhələlərdən biri olmuşdur. İqtisadi, sosial- gigiyenik və demoqrafik məsələlərdə peşəkar olmayan Korbüze bununla belə, insolyasiyanı, havalandırmanı və mənzillərin yerləşdirilmə sıxlığını xəstəlik və ölüm faizinə təsir edən ən vacib amillərdən hesab etmişdir. Bizdə bu problem yuxarıda işıqlandırılır, burada isə qeyd edəcəyik ki, çox sıx məskunlaşmış, lakin parklar, bulvarlar və nəhəng ictimai meydanlar kimi boş məkanlara malik olan, şəhərə həm işıq, həm də hava verən kiçik bir ərazidə böyük şəhər yaradaraq Korbüze, öz təbirincə desək, "kəndi şəhərə" köçürmək üçün mübarizə apardı, halbuki Hovard təliminin mahiyyəti isə şəhərin kəndə köçürülməsindən ibarət idi.
**Açar sözlər:** şəhərsalma fəaliyyəti, paytaxtların planlaşdırılması, yenidənqurulma, sivilizasiya, sakinlərin, şəhər- bağ nəzəriyyəsi, konsentrasiya, kvartal, park

# URBAN PLANNING CONCEPTS OF THE LATE 19$^{th}$- EARLY 20$^{th}$ CENTURIES AND THE SEARCH FOR NEW FORMS OF SETTLEMENT

**Isbatov Ilqar Aydin**– PhD in architecture, ass. prof., departament of Basics of architecture, AzUAC, isbatov@mail.ru

**Abstract.** In the 1920s, two trends appeared on the world urban planning arena: one of them, which emerged at the turn of the 19$^{th}$ and 20$^{th}$ centuries, was headed by Ebenezer Howard, while the other owed its origin to Corbusier. In terms of the reality and degree of development of urban planning problems, Corbusier's concept was significantly inferior to Howard doctrine. Nevertheless, it cannot be passed by, since written in 1922-1925 Corbusier's book "Urbanism" was directed against Howard and at the same time was one of the notable stages in the history of urban planning art of the 20$^{th}$ century. Not being a professional in economic, socio-hygienic, and demographic issues, Corbusier correctly regarded insolation, aeration and apartment density as the most important factors affecting morbidity and mortality. We have highlighted this problem above, but we should note that, creating a large city on a small territory, extremely densely populated, but possessing free spaces like parks, boulevards and huge public squares, giving the city both light and air, Corbusier fought to move "village to the city", while the essence of Howard's doctrine was to move city to village.
**Keywords:** urban planning activities, planning of capitals, reconstruction, civilization, residents, city- park theory, concentration, block, park

20- ci əsrin əvvəllərində hərbi və müharibədən sonrakı iqtisadi böhranla şərtlənən şəhərsalma fəaliyyətsizliyi şəhərlərin müharibədən əvvəlki inkişafına yekun vurmağa və kapitalist dünyasının ən böyük şəhərlərinin yaşadığı çətin sosial-iqtisadi və nəqliyyat böhranından çıxış yolunu təyin etməyə imkan verdi. Əgər XIX əsrin ortalarında elmi kommunizmin qurucuları başda olmaqla mütərəqqi siyasi xadimlər, yazıçılar və mütəfəkkirlər böyük şəhərin böhranının səbəbləri və faktları barədə açıq danışırdılarsa, yarım əsr sonra burjua partiyalarının rəhbərləri, hökumət başçıları və hətta krallar belə böhranı etiraf etməyə başladılar. Üstəlik, uzun sürən böhran şəhərsalma mütəxəssisləri üçün də başa düşülən idi. Ancaq böyük şəhərin böhran vəziyyətinə dair fikir birliyinə gələn şəhərsalma mütəxəssisləri bundan qurtulmağın müxtəlif yollarını və vasitələrini görürdülər.

1920- ci illərdə dünya şəhərsalma arenasında iki cərəyan mövcud idi: onlardan biri XIX- XX əsrin əvvəllərində yaranmış, Ebenizer Hovard tərəfindən idarə olunurdu, digəri isə mənşəyinə görə Korbüzeyə borcludur. Korbüzenin şəhərsalma nəzəriyyəçisi kimi dünyagörüşü Ossmandan sonrakı Paris atmosferində formalaşmışdır. O, hər gün burada yerinə yetirilmiş işlərin həcmini heyranlıqla müşahidə etmək imkanı əldə etmiş və öz təcrübəsində Ossmanın düzəldilməsi mümkün olmayan səhvlərini dərk etmişdir. Eyni zamanda Korbüze, Avropa paytaxtlarının planlaşdırılmasının təhlili və yaratdığı "şəhərin işıqlandıran nüvəsi" adlı nəzəriyyəsi ilə dünya şəhərsalma elmini zənginləşdirən Ejen Enarın davamçısı idi. Ossman və Enar tərəfindən olan bu ikiqat təsir altında Korbüze böyük şəhərlərin yenidən qurulması probleminə özünün bütün şəhərsalma fəaliyyəti üçün xarakterik olan cəsarətli münasibətini inkişaf etdirdi.

Böyük şəhərlərin bilavasitə yenidən qurulmasından çəkinən və bundan yayınmağı təşviq edən Hovarddan fərqli olaraq, Korbüze yüksək inkişaf etmiş qabaqcıl texnologiya ilə təchiz olunmuş müasir insanın təbii surətdə (özbaşına) yaranmış köhnə şəhərin üzərində qələbə qazanmağa qadir olduğuna qətiyyətlə inanırdı. Korbüze şəhərlərin yenidən qurulması üçün vasitələrin seçimini edərkən öz müəllim və sələfləri olan Ossman və Enar kimi "cərrahiyyəyə", yəni memarın şəhərin mənəvi və fiziki cəhətdən köhnəlmiş maddi toxumalarına müdaxiləsinə üstünlük verirdi. Bəlkə də Korbüze və Hovard arasındakı ən prinsipial fərq böyük şəhərin bəşəriyyətin tarixində oynadığı sivilizasiya rolunun qiymətləndirilməsindən ibarət idi. Hovard böyük şəhərləri ilk növbədə elm, incəsənət və texnikanın taleyinə passiv yanaşan orta təbəqədən olan sakinlərin dar gündəlik məişət maraqları baxımından nəzərdən keçirirdi; beləliklə, Hovardın böyük şəhəri qiymətləndirməsi dünya mərkəzlərinin mütərəqqi tarixi missiyasını sıfıra endirən sanki istehlakçı, xırda burjua xarakteri aldı. Lakin Korbüze eqoist, xırda maraqlar səviyyəsindən daha yuxarı qalxa bilmişdi ki, bu da onun böyük şəhərlər və şəhər- bağlar haqqında dediyi aşağıdakı ifadədən aydın görünür: “Şəhər- bağ, sosial nöqteyi- nəzərdən, bir növ narkotikdir: o kollektiv düşüncəni, təşəbbüskarlığı, həyəcanı, iradə gücünü zədələyir; o, bütün insan enerjisini ən kiçik və formasız qum dənələrinə qədər xırdalayır...” “Əgər siz xalqın dünyagörüşünü daraltmaq istəyirsinizsə, onda gəlin deurbanizasiya ilə məşğul olaq, əksinə əgər, dünyagörüşünü genişləndirmək və ona əsrlə bərabər səviyyədə getmək gücü vermək arzunuz varsa, onda planlaşdırmağa, konsentrasiyaya başlayacağıq...". Beləliklə, Korbüze eyni vaxtda həm nəticəsi şəhər-bağlar olan desentralizasiyaya qarşı çıxmış, həm də böyük şəhərlərin möhkəm tərəfdarı idi. O deyirdi: “Böyük şəhər hər şeyi idarə edir: sülhü, müharibəni və işi. Böyük şəhərlər kainatın ən yaxşı əsərlərinin yaradıldığı mənəvi emalatxanalardır” [1].

Korbüze tərəfindən həm şəhərsalma haqqındakı ilk kitabında, həm də sonrakı nəzəri əsərlərində irəli sürülmüş ideyaların geniş dairəsini onun müasirləri "urbanizm doktrinası" adlandırmağa başladılar və bu termin altında təkcə böyük şəhərlərin qorunması deyil, həm də əhalinin daha böyük konsentrasiyası əsasında onların yenidən qurulması başa düşülürdü. Eyni şəkildə, şəhər anlayışını inkar edən Hovardı "dezurbanist" cərəyanın atası hesab edirdilər. Lakin, onların hər ikisinin konsepsiyalarını obyektiv şəkildə araşdırmaqla, onlarda yalnız əhalinin konsentrasiyasına (Korbüze) və desentralizasiyasına (Hovard) olan meylləri müşahidə etmək olar.

Böyük şəhərə olan barışmaz münasibətinə baxmayaraq, Hovard özü- özlüyündə heç vaxt şəhəri inkar etmir, kiçik şəhərləri və hətta şəhər-bağları və Korbüzeni də rədd etmirdi. Korbüzenin və Hovardın konsepsiyaları ətrafında çox qarışıqlıq yarandığından bunu əminliklə araşdırmaq lazımdır.

1922- ci ildə təqdim olunan "Vuazen Planı" mübahisəli və coşqun fikirlərə səbəb oldu, lakin həyata keçirilmədi. Ancaq bunu heç gözləmək də olmazdı, çünki Korbüze özünün bu layihəsini həyata keçirilmək üçün deyil (mövcud Parisin məhvinə səbəb olacaq), yalnız özünün nəzəri konsepsiyalarının əyani şəkildə açılması üçün görülən bir laboratoriya işi hesab edirdi. Korbüzenin əksinə olaraq Hovard təklif etdiyi şəhər- bağların həyata keçirilməsinə ümid edirdi, buna görə də onların yerləşdirilməsinin və coğrafi yayılmasının ləngliyini özünün şəhərsalma ümidlərinin puça çıxması kimi qəbul edirdi. Buna baxmayaraq, Hovardın ölümündən sonra (1928) onun təlimləri yaşamaqda və inkişaf etməkdə davam edirdi, halbuki Korbüzenin cazibədar utopiyası isə o dövrün praktikasına demək olar ki, heç bir təsir göstərmədən qısa zamanda itdi.

Korbüzenin yüksək konsentrasiylı əhalisi olan bölünməmiş böyük şəhəri qorumağa və modernləşdirməyə çalışan yeganə davamçısı Lüdviq Hilbersaymer idi. 20- ci illərin ortalarında, bu məhsuldar alman nəzəriyyəçisi 4 milyon əhalisi olan mücərrəd şəhər layihəsi ilə çıxış etdi və Korbüzenin nümunəsi əsasında onu əyanilik məqsədi ilə, eyni populyasiyaya sahib olan Böyük Berlinin ərazisi ilə müqayisə etdi.

Hilbersaymerlə Korbüzenin layihələrində bir çox ortaq məqamlar var idi. Həm orda, həm də burada paytaxt miqyaslı şəhərlərin əhalisi nisbətən kiçik ərazilərdə yerləşirdi; həm orada, həm də burada şəhərlər əsas nəqliyyat qovşaqlarının yerləşdiyi iki bir- birinə perpendikulyar planlaşdırma oxlarının ənənəvi kəsişmələri ilə dördkünc forma alırdılar. Eyni zamanda Hilbersaymerin layihəsi Korbüzenin ideyalarından çox fərqli konkret təkliflər irəli sürürdü. Beləliklə, "Vuazenin planı"nın alman versiyasında nə xüsusi seçilmiş şəhər ictimai mərkəzi, nə də şəhərin ifadəli silueti yox idi, çünki bütün yaşayış binaları burada bərabər hündürlüyə malik idi. Hilbersaymer şəhərinin daha bir səciyyəvi xüsusiyyəti, onun hündürmərtəbəli binalarının hər yerdə ikiyaruslu olması idi.
5 mərtəbədən ibarət olan alt yarus müəllif tərəfindən işgüzar müəssisələr üçün nəzərdə tutulmuş, üst yarus isə yaşayış üçün ayrılmışdır. 15 mərtəbədəki yaşayış evləri daha geniş alt beşmərtəbəli korpuslara istinad edirdi; küçələrə baxan tinlər (çıxıntılar) isə səkilər kimi istifadə olunurdu. Bayır tərəfdən kvartalı əhatə edən hər bir səki əks tərəfdəki səkilərlə körpülər vasitəsilə əlaqələnirdi, nəticədə bütün şəhər beşinci mərtəbə səviyyəsində vahid piyada əlaqəsi sistemini əldə etdi. Beləliklə, Hilbersaymer piyadaları tamamilə yerüstü nəqliyyatından təcrid etdi və öz fantastik şəhərini ikiyaruslu şəhərə çevirdi. Aşağıda- əmək və maşınların hərəkəti, yuxarıda- mənzillər və istirahət- bu Hilbersaymerin aparıcı ideyası idi [2,3].

Bununla belə, müxtəlif nəqliyyat axınlarının bir- birindən ayrılması ilə bağlı maraqsız görünməyən təklif Hilbersaymer layihəsində həqiqətən yolverilməz paradokslarla birləşdirildi. Əvvəla, əhalinin ərazidə həddindən sıx yerləşdirilməsi (keçidlər daxil olmaqla, 1 ha- a 3120 nəfər) nisbətən yüksək tikinti sıxlığı ilə diqqət çəkir. Əgər Korbüze yaşayış rayonlarında tikinti ərazisini 15%- ə, şəhər mərkəzində 5%- ə çatdırırdısa, Hilbersaymer kvartalların demək olar ki, yarısını (46%) tikintiyə ayırırdı. Belə vəziyyətdə isə kvartaldaxili yaşıllıq üçün yer qalmırdı. Əgər Korbüze, yaşayış tikintisini kvartalların ləğv edilməsinə qədər seyrəkləşdirmək istəyirdisə, o zaman Hilbersaymer daim düzbucaqlı kvartalları və 68x68 m.- lik tərəfləri olan həyətləri son dərəcə pedantlıqla (xırdaçılıqla) ştamplayırdı. Aydındır ki, bu həyətlərin havalandırılması (həm də insolyasiyası) normaldan çox uzaq idi. Düzdür, şəhərin yuxarı hissəsində paralel xətlər boyunca yerləşən yaşayış korpusları yaxşı şüalanır və havalanırdı, lakin ictimai təyinatlı parkların olmaması səbəbindən şəhərin sanitar-gigiyenik səviyyəsi çox aşağı düşürdü.

Bu utopik şəhərin bədii siması da nöqsansız deyildi. 20 mərtəbəli evlərin eyni cür olan üfüqi blokları Hilbersaymerin layihəsində olduqca cansıxıcı görünür. Görünən budur ki, memar burada öz peşəkar bədii düşüncəsini itirmiş, yaxud şüurlu şəkildə onu uydurulmuş primitiv sxemə qurban vermişdir.

Əlbəttə ki, Hilbersaymerin layihəsi heç kimi cəlb edə bilməzdi və hətta bütün "urbanistik" istiqamətə zərər verirdi. Hilbersaymerin əsərindən (opusundan) sonra rəssamlıq istedadı sayəsində öz şəhərsalma səhvlərini ört- basdır edən Korbüzeyə də etimadsızlıq göstərməyə başladılar. Buna görə

Hilbersaymerin layihəsi, əhalisi sıx olan parçalanmamış şəhərlə bağlı aparılan eksperimentlərə son qoydu və demərkəzləşdirilmiş şəhərsalma sistemlərinin axtarışları əhəmiyyətli dərəcədə canlandı [4].

Müharibələrarası illərdə memarlar şəhərlərin qarşısıalınmaz böyüməsini maraqla izləyirdilər. O vaxt çoxlarına elə gəlirdi ki, Midlend və Ruhrın şəhərlərlə yüklənmiş taleyi sənaye baxımından inkişaf etmiş bütün digər ölkələrə yayılacaq və sənaye şəhərləri bir araya gələrək aralarındakı kənd təbiətini məhv edəcək. Şəhər əhalisinin təmiz şəhərkənarı ərazilərdən get- gedə daha çox ayrılması insanların ağlına və duyğularına xüsusilə güclü təsir göstərirdi. Bu səbəbdən, insanın təbiətlə yaxınlaşması probleminin işlənib hazırlanması davam edirdi, lakin artıq Hovardın mərkəzi nüvəni əhatə edən peyk şəhərlərinin konsentrik sistemləri formasında deyil, yollar və su arteriyaları boyunca güclü şəkildə uzanan xətti şəhərlər şəklində.

Əslində xətti (və ya lentşəkilli) məskunlaşma üsulu çox qədim zamanlardan kəndlərdə daha çox yayılmışdır. Kəndlərdən yaranan bəzi şəhərlər, məsələn, Şotlandiyanın paytaxtı Edinburqda olduğu kimi, hələ də özünün orijinal xətti quruluşunu qoruyub saxlamışdır. Ancaq xətti şəhərlərin əksəriyyəti kortəbii şəkildə meydana gəlmiş və yalnız XIX əsrin sonlarından (daha doğrusu, İspan memarı Soria və Matanın kitabının nəşr olunduğu andan, 1882) bu tip şəhərlərə xüsusi diqqətlə yanaşmağa başladılar və yüksək sürətli nəqliyyat vasitələrinin meydana gəlməsi ilə onlar daha daha böyük aktuallıq əldə etdilər.

Xətti məskunlaşma formasının tərəfdarları güman edirdilər ki, lentşəkilli şəhərlər bütün ölkələr miqyasında əhalinin demərkəzləşdirilməsi üçün aktiv vasitə ola bilər və onlar paytaxt mərkəzlərinə qədər istənilən şəhərləri əvəz etməyə qadirdirlər və xətti məskunlaşma şəbəkəsi kənd təsərrüfatı təyinatlı əraziləri demək olar ki, asanlıqla kəsərək coğrafi xəritədə daha yaxşı həll ediləcək. Son vəziyyət xüsusilə cəlbedici idi, çünki xətti şəhər mövcud meşə və tarlaların bütövlüyünün qorunmasının etibarlı təminatı, insanları təbiətə yaxınlaşdırmaq üçün real fürsət kimi görünürdü, çünki şəhərin cüzi genişliyi mexaniki nəqliyyat vasitələrinə müraciət etmədən meşə massivlərinə, çəmənliklərə və tarlalara baş çəkməyə imkan verərdi. Məhz buna görə xətti şəhər tez bir zamanda diqqəti özünə cəlb etdi və 30- cu illərin ortalarına qədər ən populyar planlaşdırma sistemi olaraq qaldı.

Layihə- planlaşdırma təcrübəçilərinə məlumdur ki, şəhər ərazisinin konfiqurasiyası, memarın aprior fikirindən çox, iqtisadi, mühəndis- texniki və topoqrafik şəraitdən asılıdır. Belə ki, planlaşdırmanın funksional- konveyer (axın, arasıkəsilməzlik) metodunun vasitəsi ilə şəhərlərin demərkəzləşdirməsinin fəal tərəfdarı olan Ernst May, Maqnitoqorska lentşəkilli formanı verə bilmədi, çünki filiz mədən sahəsi ilə bilavasitə bağlı olan sənaye kompleksi yığcam seliteb ərazinin mövcudluğunu tələb edirdi. Eyni şey, Hilbersaymerin böyük, yığcam şəkildə qurulmuş şəhərlərin yenidən qurulması ilə məşğul olduğu dövrdəki layihələri ilə də baş verdi.

Çikaqonun üç milyondan çox sakinini məskunlaşdırmaq üçün Hilbersaymer öz xətti şəhərini paralel zolaqlar şəklində üç dəfə təkrarlamalı və oxşar üsulla, qatlara bölməklə, tüstü buraxan zavodları şəhəri əhatə edən xarici zonalarda yerləşdirməli oldu. Lakin bu vəziyyətdə şəhər ərazi baxımından kompakt hala çevrildiyindən xətti yaşayış məskunlaşmanın əhəmiyyəti tamamilə itirdi. Əgər Hilbersaymerin layihəsi həyata keçirilsəydi, Çikaqo sakinləri şəhər ərazisinin həddən artıq böyüməsi səbəbindən nəqliyyat əlaqələrində uduzar və şəhərin dəyəri inanılmaz dərəcədə artardı. Eyni müəllifin sıx salınmış Manhettenin yenidən qurulması ilə bağlı təklifi də qeyir- təbii idi. Londonun yenidən bərpası eskizi özü ilə Hilbersaymer tərəfindən icad edilən sxemə cüzi bəraət qazandırdı. Bu layihədə diqqəti çəkən məqam müəllifin qollara ayrılmış lentşəkilli qəsəbələrini Londonun hələ mənimsənilməmiş kənar ərazilərinə köçürməsi idi. Kotteclərlə salınmış şəhərətrafı qəsəbələrdə belə, Hilbersaymerin lentləri həm istiqamətlərinin London yollarının mövcud radial şəbəkəsi ilə uyğunsuzluğu, həm də planlaşdırma və tikintinin primitivliyi səbəbindən qeyri-real olardı. Axı qəsəbələrin qurulmasında yüksək mədəniyyət nümayiş etdirən ingilislər təkcə məişət şəraitini deyil, həm də mənzillərin bədii müxtəlifliyini də qiymətləndirə bilirlər.

Beləliklə, 30- cu illərdə böyük əks- səda yaradan xətti şəhər demək olar ki, özündən sonra heç bir real iz qoymayan növbəti hobbi oldu. Xətti sistemlərlə aparılan çoxsaylı təcrübələrdən memarlar çox qiymətli bir üsul- yəni şose və dəmir yollarının yaxınlığında nisbətən kompakt və kiçik yaşayış

məntəqələrinin yerləşdirilməsi üsulunu öyrəndilər. Əgər Hovardın metodu ilə deməkəzləşdirmə urbanistik "planet sistemlərinin" meydana gəlməsinə səbəb olmuşdusa, indi konsentrik halqaları yol boyunca, düz, ya da əyri xətli istiqamətləndirərək bu konsentrik halqaları "düzəltmək" imkanı yaranmışdır. Ancaq Valter Qropiusun adı ilə bağlı olan bu addım daha sonralar- İkinci Dünya Müharibəsinin sonunda atıldı.

1930- cu illərin ortalarında bir çox ölkələrdə xətti şəhər anlayışı məhvedici tənqidə məruz qaldı. Məsələn, İngiltərədə Aberkrombi lentşəkilli məskunlaşmaya aktiv qarşı çıxanlardan biri idi ki, bu tip şəhərlərdə kənd ərazilərinə yad urbanistik quruluşları görürdü. Aberkrombi, lentşəkilli şəhərlərin dayanmadan böyüməsini, tədricən bütün canlı orqanizmi iflic edən xərçəng şişinin böyüməsi ilə müqayisə edirdi. Aberkrombi xətti şəhərlə bağlı son hökmünü aşağıdakı sözlərlə çatdırırdı: "Xətti şəhərin yaşayış məntəqəsinin qənaətbəxş sosial həll yolu ola biləcəyini təsəvvür etmək çox çətindir." Xətti sistemlərin uğursuzluğa uğraması böyük şəhərlərin deməkəzləşdirilməsinin digər üsullarının axtarışına qayıtmağa məcbur etdi.

Böyük şəhərin deməkəzləşdirilməsi ideyasının ən inandırıcı tərəfdarlarından biri Fin memarı Eliel Saarinen olmuşdur. Bununla belə, onun nəzəri müddəaları həm Hovardın klassik təlimlərindən, həm də Adams və Perri tərəfindən təklif olunan mikrorayonlar konsepsiyasından əhəmiyyətli dərəcədə fərqlənirdi. Əgər Hovard, mərkəzində metropol şəhərin olduğu, ondan böyük məsafədə (30- 60 km) peyklərlə əhatə olunmuş özünəməxsus "planet sistemini" yaratmışdısa, Saarinen daha yığcam bir şey, yəni dar yaşıllıqlarla (1 km- dən az) ayrılan yarı- muxtar şəhər rayonlarının federasiyasını yaratmağı təklif etdi. Buradan aydın olur ki, Saarinenin ayrı- ayrı şəhər rayonlarının sistemi parçalanmış olsa da vahid şəhər orqanizmi idi. Eyni zamanda, Saarinenin "funksional konsentrasiyalar" adlandırdığı yarı- muxtar şəhər rayonlarını mikrorayonlar kateqoriyasına aid etmək olmazdı, çünki bu "konsentrasiyalarda" təkcə yaşayış binaları, mağaza və məktəblər deyil, həm də istehsal emalatxanaları və hətta zavodlar daxil olmaqla müxtəlif əmək fəaliyyəti mərkəzlərinin yerləşdirilməsi nəzərdə tutulurdu. Saarinen konsepsiyası "orqanik" və ya daha doğrusu, "mütəşəkkil" deməkəzləşdirmə adı ilə şəhər haqqında elmə daxil olmuşdur [5].

Peşəkar aktiv əhalinin yaşayış yeri üzrə əmək məşğulluğu müəllifin konsepsiyasının əsasını təşkil edir. Bununla belə Saarinen yaxşı başa düşürdü ki, mənzilin, sənayenin, elmi və təhsil müəssisələrinin, habelə inzibati və biznes qurumlarının şəhər ərazisi üzrə bərabər paylanması yenə də qeyri- real idi. Buna görə də özünün parçalanmış şəhərinin nəqliyyat təşkilinə xüsusi diqqət yetirirdi. Ayırıcı yaşıl zolaqlar boyunca, təcrid olunmuş döşənmiş yol üzərində, federal şəhərin ən ucqar nöqtəsinə belə maneəsiz və tez çatmağı təmin edə biləcək yüksək sürətli şəhər nəqliyyatı işləməli idi.

XIX- XX əsrlərdə bir çox obyektlərdə şəhər ərazilərinin genişlənməsi prosesini təhlil edən Saarinen belə bir qənaətə gəldi ki, böyük şəhər yalnız müəyyən bir həddə qədər vahid kompakt bütöv olaraq inkişaf edə bilər. Ancaq elə bir məqam gəlib çatır ki, köhnə, sıx tikilmiş şəhər nüvəsi ətrafında yeni müstəqil şəhər törəmələri meydana çıxır, köhnə şəhərin "maddi toxumaları" tədricən tənəzzül edir və köklü şəkildə yenidən qurulmağı tələb edir. Buna görə "mütəşəkkil deməkəzləşdirmə" müəllifinin fikrincə, planlaşdırmaçı və memarların rolu yuxarıda göstərilən kortəbii prosesin rasional tənzimlənməsi ilə nəticələnməlidir.

Eliel Saarinenin nəzəri sxemi parçalanmış ərazi xarakterli şəhərlər üçün xüsusilə münasib oldu. Buna görə o Skandinaviya ölkələrində daha böyük müvəffəqiyyət qazandı və burada sahil zolağının girintili- çıxıntılı olması, həmçinin həddindən artıq genişlənmiş şəhərlərin çox olmaması onun öz zamanında tətbiqi üçün əlverişli şərait yaratdı. "Orqanik deməkəzləşdirmə" prinsipləri ilk dəfə 1913- cü ildə Saarinen tərəfindən Revelin (Tallinin) genişləndirmə layihəsində həyata keçirildi; Saarinen 1918- ci ildə öz doğma şəhəri Helsinkinin baş planını tərtib edərkən də eyni prinsipləri rəhbər tutmuşdur [6].

**Nəticə.** Alman qoşunları tərəfindən işğal edildikdən sonra Finlandiyada baş verən burjua reaksiyası şəraitində tərtib edilmiş Helsinki layihəsi icra edilməmiş qaldı. Ancaq Saarinenin sxemi o qədər həyati əhəmiyyət kəsb etdi ki, bu şəhərin yenidən qurulması üçün müasir layihəmizin əsasını

təşkil etdi. Saarinenin nəzəriyyəsi İkinci Dünya Müharibəsindən dərhal sonra tərtib edilməyə başlayan Böyük Stokholmun planlaşdırılmasına güclü təsir göstərdi. Detroyt (1933- 1934), Hettford (1933) və Çikaqo (1935- 1936) kimi Amerikanın ən böyük sənaye mərkəzlərinin "orqanik deməkəzləşdirilməsinə" gəldikdə isə bu layihələr hər hansı bir praktiki dəyəri olmayan, yalnız şəhərsalma eksperimentləri kimi qəbul edilməlidir.Saarinen sisteminə görə şəhərlərin deməkəzləşdirilməsi variantlarından biri kimi, federasiyaya daxil olan hər bir yaşayış məntəqəsinin özünəməxsus istehsal və mədəni- ictimai nüvəsini əldə etdiyi Qloyden sxemini nəzərdən keçirmək olar.

"Parçalanmış şəhər", iki dünya müharibəsi arasında bağlanmış 20 illik dövrün şəhərsalma ideyaları ilə bu qədər zəngin olduğu parlaq qalaktikasındakı son nəzəri opus idi. 1920-1930- cu illərdəki bir çox urbanistik proqnozların aprior olmasına və şəhərsalma utopiyalarında isə şəhərlərin yenidən qurulması ilə bağlı xüsusi tövsiyələrin verilməməsinə baxmayaraq, bu dövrün intensiv axtarışları çox səmərəli idi, çünki onlar şəhərsalma nəzəriyyəsinin və təcrübəsinin gələcək inkişafına böyük təsir göstərirdi.

**Ədəbiyyat**

1. Бочаров Ю.П., Кудрявцев О.К. Планировочная структура современного города. Москва, 160 с., 1972
2. Бретаницкий Л.С., Саламзаде А.В. Архитектура Советского Азербайджана. Литературы по строительству, Москва, 264 с., 1973
3. Лавров В.А. Реконструкция крупных городов (методическое пособие для проектировщиков), ЦНИИПИ по градостроительству. Изд. Литературы по строительству, Москва, 1972
4. Нагиев Н.Г. Современное градостроительство Азербайджанской Республики. Издательство «Təhsil işçisi mətbəəsi» ММС, Баку, 2011
5. Нагиев Н.Г., Гусейнов Ф.М. История архитектуры Азербайджана. Современная история архитектуры Азербайджанской Республики. V том, Издательский дом «Шарг- Гарб», Баку, 354с., 2013
6. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX начала XX века. Ленинград: Стройиздат, 456с., 1986

**References**

1. Bocharov Yu.P., Kudryavcev O.K. Planirovochnaya struktura sovremennogo goroda. Moskva, 160p., 1972
2. Bretanickij L.S., Salamzade A.V. Arhitektura Sovetskogo Azerbajdzhana. Literatury po stroitel'stvu, 264p., Moskva, 1973
3. Lavrov V.A. Rekonstrukciya krupnyh gorodov (metodicheskoe posobie dlya proektirovshchikov), CNIIPI po gradostroitel'stvu. Izd. Literatury po stroitel'stvu, Moskva, 1972
4. Nagiev N.G. Sovremennoe gradostroitel'stvo Azerbajdzhanskoj Respubliki. Izdatel'stvo «Təhsil işçisi mətbəəsi» MMC, Baku, 2011
5. Nagiev N.G., Gusejnov F.M. Istoriya arhitektury Azerbajdzhana. Sovremennaya istoriya arhitektury Azerbajdzhanskoj Respubliki. V tom, Izdatel'skij dom «Sharg- Garb», Baku, 354p., 2013
6. Fatullaev Sh.S. Gradostroitel'stvo i arhitektura Azerbajdzhana XIX nachala HKH veka. Leningrad: Strojizdat, 456p., 1986

Redaksiyaya daxil olma/Received 15.09.2020
Çapa qəbul olunma/Accepted for publication 15.10.2020